*Biz tarixdə ilk dəfə müstəqil Azərbaycan Respublikasının dünya birliyində bərabərhüquqlu yer tutduğuna görə fəxr edirik. Birləşmiş Millətlər Təşkilatının bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında aparıcı rol oynamalıdır. Azərbaycan xalqının iradəsini ifadə edərək bəyan edirəm ki, biz bütün dünyada sülh istəyirik, bizim regionda sülh istəyirik, bütün qonşu dövlətlərlə sülh və mehriban münasibətlər istəyirik.*

***Ulu öndər Heydər Əliyevin BMT-nin 50 illiyinə həsr edilmiş təntənəli tədbirdəki çıxışından***

***Nyu-York, 24 oktyabr 1995-ci il***



# Azərbaycan–BMT: 30 illik əməkdaşlığın bəhrələri

**Azərbaycan dövləti BMT-də öz maraqlarını layiqincə təmin edir. Həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev həmin beynəlxalq təşkilatın tribunasından çıxış edərkən, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqla yanaşı, həm də bu qurumun fəaliyyətində müasir dövrün tələblərinə cavab verən dəyişikliklər edilməsi, islahatlar aparılması barədə öz təkliflərini vermişlər. Bu isə o deməkdir ki, bizim indiki müstəqil dövlətimizin yaşı az olsa da, xalqımızın qədim dövlətçilik tarixinə malik olması siyasətçilərimizin ən böyük beynəlxalq təşkilatların tribunasından da cəsarətli təklif və təşəbbüslə çıxış etməsinə zəmin yaradır.**

***Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı, Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. 2021-ci il 7 iyul tarixli fərmanla biz Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratmışıq. Fürsətdən istifadə edərək, mən BMT-yə üzv dövlətləri və BMT Katibliyini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə çağırıram.***

***Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələrində videomüraciət formatında səsləndirilən çıxışından***



Martın 2-də Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına qəbul edilməsinin 30 ili tamam oldu. Rəsmi məlumatlarda oxuyuruq ki, respublikamız BMT ilə əməkdaşlığa başladıqdan sonra bu mötəbər qurumun platformasından beynəlxalq ictimaiyyətin diqqətini indi artıq tarixin arxivinə atılmış Dağlıq Qarabağ münaqişəsinə cəlb etmiş, BMT-nin potensial imkanlarından istifadə etməklə problemin ədalətli həllinə çalışmışdır. 1993-cü il ərzində BMT-nin Təhlükəsizlik Şurası bu münaqişəyə dair dörd qətnamə qəbul etmişdir. Həmin qətnamələr Azərbaycanın ərazi bütövlüyünü, Dağlıq Qarabağ və digər ərazilərin Ermənistan tərəfindən işğalı faktını təsdiq edərək, işğalçı qüvvələrin Azərbaycan Respublikası ərazisindən dərhal çıxarılması tələblərini irəli sürmüşdür. Bundan başqa, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan əhalisinin doğma torpaqlarından qaçqın və məcburi köçkün düşməsindən narahatlıq hissi keçirərək BMT-nin Baş Assambleyası 1993-cü ildə keçirdiyi 85-ci plenar iclasında "Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında" qətnamə qəbul etmişdir.

Prezident İlham Əliyev işğalçı Ermənistan üzərindəki şanlı Qələbəmizdən sonra dönə-dönə xatırlatmışdır ki, bizim bu haqq mübarizəmizə qalxmağımızı bütün beynəlxalq təşkilatların qəbul etdiyi müvafiq sənədlər təmin edirdi. Təbii ki, həmin sənədlərin önündə ilk olaraq BMT Təhlükəsizlik Şurasının qətnamələri xatırladılırdı.

Xatırladaq ki, 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak edən ulu öndər Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan Respublikasının prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdır. Ümummilli lider Heydər Əliyev 2000-ci ilin sentyabrında BMT-nin Minillik Zirvə toplantısında da iştirak etmiş, çıxışında qloballaşdırma mövzusuna toxunmuş, Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri xüsusi qeyd etmişdir.

İndi isə Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələrində videomüraciət formatında səsləndirilən çıxışını yada salaq. Dövlət başçımızın həmin çıxışı Azərbaycanın Vətən müharibəsində şanlı qələbəsindən sonra onun dünya ictimaiyyətinə müzəffər Ali Baş Komandan kimi BMT-də ilk dəfə müraciəti idi. İlham Əliyev çıxışında Ermənistanın 30 il ərzində apardığı işğalçılıq siyasəti, etnik dözümsüzlük, müharibə vaxtı ermənilərin insanlığa qarşı cinayətləri, postmüharibə dövründə Cənubi Qafqazda təzahür edən yeni reallıqlar, Ermənistanın davam etdirdiyi destruktiv siyasət haqqında danışaraq, həqiqətləri bir daha dünya ictimaiyyətinə çatdırdı. Eyni zamanda, dövlət başçısı beynəlxalq çağırış olmaqda, davam edən COVID-19 pandemiyası ilə əlaqədar ölkəmizin apardığı qlobal fəaliyyət haqqında iclas iştirakçılarını məlumatlandırdı.

Dövlət başçımız həmin gün erməni faşizmini ifşa etdi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı, etnik təmizləmə siyasətini, faşizm ideologiyası əsasında dövlət siyasəti qurduqlarını faktlarla beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Qeyd etdi ki,"təqribən 30 il ərzində Ermənistan ölkəmizin ərazisinin 20 faizini işğal altında saxlayırdı. İşğal müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək, yüzlərlə dinc insanı, o cümlədən 106 qadını və 63 uşağı qətlə yetirmişdir. 1275 azərbaycanlı əsir götürülmüşdür, onların 150-si hələ də itkin hesab olunur. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür".

İlham Əliyev xatırlatdı ki, mən 2020-ci ilin sentyabrında BMT Baş Assambleyasının sessiyasında çıxış edərək, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı və Ermənistan hökumətinin təcavüzkar bəyanatları və hərəkətləri ilə bağlı məsələni qaldırdım: "Bu gün, bir il sonra, Ermənistanın döyüş bölgəsində məğlub olduğunu və Azərbaycanın işğala son qoymasını söyləməkdən qürur duyuram!"

Dünya ictimaiyyətinə xatırladılırdı ki, 1 il əvvəl BMT-nin 75-ci sessiyasında Azərbaycan dövlət başçısı müharibənin başlama ehtimalını diqqətə çatdırmış, bölgədə eskalasiyanın artmaması üçün dünyanı xəbərdar etmişdi. Ancaq kimsə Ermənistanın həyasızlıqlarına son qoymaq üçün hansısa kəsərli addımı atmaq istəməmişdi. Həmin kəsərli addımı məhz Azərbaycanın özü atdı və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edərək, dünyanın ən böyük beynəlxalq təşkilatının reallaşdıra bilmədiyi sənədləri həyata keçirdi. Tarixçilər Azərbaycan – BMT əməkdaşlığı barədə danışarkən ölkəmizin bu beynəlxalq təşkilatın qurum və orqanları ilə birgə fəaliyyətdə qazandığı uğurlardan, xüsusən, Təhlükəsizlik Şurasına sədrlik etdiyi dövrdə ortaya qoyduğu prinsipiallıq, ədalət, obyektivlik və peşəkarlıqdan daha çox söz açmağa üstünlük verirlər.

Xatırladaq ki, ölkəmiz BMT Təhlükəsizlik Şurasının iclasında qeyri-daimi üzvü kimi ilk dəfə 4 yanvar 2012-ci ildə iştirak etmişdir. Həmin il mayın 1-dən etibarən isə BMT TŞ-yə sədrlik etmişdir. Azərbaycan sədrlik estafetini ABŞ-dan almış, bir ay sonra – iyunun 1-də isə sədrliyi Çinə ötürmüşdür. Azərbaycanın sədrliyi dövründə BMT TŞ 13 açıq, 16 qapalı iclas keçirmişdir. Bu müddət ərzində BMT TŞ-nin 2-si Sudandakı vəziyyətə, 1-i isə Qvineya-Bisaudakı hərbi çevrilişə dair olmaqla 3 qətnaməsi, habelə mətbuat üçün 7 bəyanatı qəbul edilmişdir. 2000-2002-ci illərdə BMT-nin Qadınların statusu haqqında Komissiyanın üzvü olmuş ölkəmiz, həmin qurumun "Hərbi münaqişələr nəticəsində girov götürülmüş qadın və uşaqların azad edilməsi haqqında" illik qəbul etdiyi qətnaməsinin əsas sponsorudur.

Ölkəmiz BMT-nin İnkişaf Proqramı nə Sənaye İnkişaf Təşkilatı ilə xüsusi əlaqələrə malikdir. Müxtəlif layihə və proqramlar yaşayış standartlarının yüksəldilməsinə, iqtisadiyyatın struktur tənzimlənməsinin həyata keçirilməsinə xidmət edir. Xüsusilə də, BMT-nin İnkişaf Proqramı Azərbaycanın Bərpa və Yenidənqurma Agentliyinin və Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin imkanlarının inkişaf etdirilməsi və onların maliyyələşdirilməsi yolu ilə münaqişədən sonrakı bərpa prosesinə böyük yardım göstərmişdir.

Təhsil, elm və mədəniyyət məsələlərinin vacibliyini nəzərə alaraq, Azərbaycan BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) ilə geniş əməkdaşlıq edir. Bu məqsədlə 1994-cü ildə Prezident İlham Əliyevin sərəncamına əsasən Azərbaycanın UNESCO nəzdində Milli Komissiyası təsis edilmişdir.

Azərbaycanın BMT çərçivəsində görülən işlərə verdiyi töhfələr sırasında, onun qlobal səviyyədə terrorizmə qarşı aparılan mübarizədə fəal şəkildə iştirakı xüsusilə qeyd edilməlidir. Bu baxımdan respublikamız BMT TŞ-nın Terrorizmə Qarşı Mübarizə Komitəsi ilə yaxından əməkdaşlıq edərək, həmin komitəyə Azərbaycanda terrorizmə qarşı mübarizə sahəsində görülən tədbirlər haqqında müvafiq hesabatlar təqdim etmişdir.

Ölkəmiz beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf və demokratikləşdirmə prosesində BMT-nin vacib rol oynadığını qəbul edir. Azərbaycan XXI əsrdə olacaq təhdid və problemlərə qarşı səmərəli mübarizə tədbirləri üçün BMT çərçivəsində islahatların aparılması ideyasını dəstəkləyir.

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***